# “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olan bəzi qurumların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 11, maddə 666; 2001, N 7, maddə 459; 2003, N 10, maddələr 546, 571; 2004, N 8, maddə 617, N 12, maddə 1005; 2006, N 9, maddə 743; 2008, N 8, maddə 719; 2009, N 4, maddə 226, N 8, maddə 630; 2010, N 7, maddə 606; 2011, N 6, maddə 510; 2012, N 5, maddə 423, N 11, maddə 1079; 2014, N 9, maddə 1043; 2015, N 2, maddələr 110, 140, N 6, maddə 707, N 10, maddə 1116; Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 835 nömrəli Fərmanı) 2-ci hissəsinin on altıncı abzasında “27-ci maddəsinin 2-ci hissəsinin 3-cü bəndində (ikinci halda)” sözləri “4-cü maddəsinin 24-cü bəndində (kənd təsərrüfatı texnikası üçün xüsusi məhsullara münasibətdə), 27-ci maddəsinin II hissəsinin 3-cü bəndində (ikinci halda), VII, XI, XII və XVI hissələrində, 28-ci maddəsinin IV hissəsinin ikinci cümləsində, 29-cu maddəsinin III hissəsinin üçüncü cümləsində, IV hissəsinin birinci cümləsində və V hissəsinin birinci cümləsində, 33-cü maddəsinin III hissəsində (ikinci halda), 35-ci maddəsinin II hissəsinin birinci abzasında, III hissəsinin birinci cümləsində, V hissəsinin birinci cümləsində, VII və X hissələrində” sözləri ilə əvəz edilsin, “səlahiyyətlərini” sözündən sonra “kənd təsərrüfatı texnikasına münasibətdə” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2016-cı il*